Tarix və onun problemləri, № 2 2013

**FAZIL BAXŞƏLIYEV**
***Bakı Dövlət Universitetinin dosenti***
E-mail: **baxsaliebfazil@yahoo.com**

# XIX ƏSRIN 70-90-CI ILLƏRINDƏ AZƏRBAYCAN SAHIBKAR KƏNDINDƏ KƏNDLI TƏSƏRRÜFATLARININ TƏBƏQƏLƏŞMƏSI

***Açar sözlər:*** *kapitalist, inkişaf, kənd, Şimal*
***Ключевые слова:*** *капиталист, развитие, деревня, Северный*
***Key words:*** *capitalist, development, villaj, Nothern*

*Azərbaycan sahibkar kəndində əmtəə-kapitalist münasibətlərinin yaranması və inkişafı əmlak təbəqələşməsi prosesinini gücləndirmiş və bunun nəticəsi olaraq kəndlilər yoxsul, ortabab və varlı kəndlilər kimi üç kateqoriyaya bölünmüşdür. Sahibkar kəndlilərin torpaqla təminatı baxımından təbəqələşmə prosesinin islahatdan sonra keçən 2-3 onillik ərzindəki dəyişikliklər nəticəsində diqqət çəkən əsas yekunlarından biri təbəqələşmə prosesində ciddi və ya sıçrayışlı dəyişikliklərin baş verməməsi idi. Varlı sahibkar kəndlilər kateqoriyasına daxil olanların sayının ən çox ortabab kəndlilər kateqoriyası hesabına çox az artması fonunda, onların istifadə etdikləri torpaq sahələrinin genişlənməsi diqqəti daha çox cəlb edən xüsusiyyətlərdən biri olmuşdur.*

Kəndli islahatının həyata keçirilməsi və bundan sonrakı illərdə Azərbaycanın kənd təsərrüfatında, bütövlükdə iqtisadiyyatda yeni kapitalist münasibətlərinin yaranması və genişlənməsi nəticəsində sahibkar kəndi daxilində, kəndli təsərrüfatlarının vəziyyətində baş vermiş mühüm dəyişikliklərdən biri də sahibkar kəndliləri sırasında əmlak və sosial təbəqələşmənin get-gedə dərinləşməsi idi. XIX əsrin 70-90-cı illərində daha da güclənən bu proses Azərbaycan sahibkar kəndi üçün xarakterik olan bir sıra cəhətlərin nəinki aradan qaldırılması ilə nəticələnmədi, əksinə əmlak təbəqələşməsinin dərinləşməsilə bir sıra yeni problemlər yaratmış oldu.

Həmin dövrdə dövlət kəndliləri üçün adi hal olan pay torpaqlarının vaxtaşırı yenidən bölünməsinin sahibkar kəndi üçün xarakterik olmaması sonuncuda təbəqələşmə prosesinin güclənməsi üçün daha əlverişli şərait yaradırdı. İslahata qədər müxtəlif baxımdan bir-birindən o qədər də fərqli olmayan sahibkar kəndlilər indi bir-birilərindən istifadə etdikləri pay torpaqlarının sahəsi, mal-qara və qoyunların sayı, kənd təsərrüfatının inventarları ilə təminatı, muzdlu əməkdən istifadə etmək, torpaq icarəyə götürmək, hətta bir sıra yardımçı fəaliyyət sahələri ilə məşğul olaraq, əlavə gəlir əldə etmələri baxımından fərqlənməyə, əksər hallarda geri qalmağa və yalnız cüzi vəziyyətdə irəli getməyə başladılar(1-s.94).

Ola bilsin ki, islahatdan sonrakı Azərbaycan kəndində təbəqələşmə prosesinin gücləndiyini sübut edən başqa proseslər, yaxud vəziyyətlər də mövcud olmuşdur (2-s.14). Digər tərəfdən, təbəqələşmə prosei, xüsusilə də əmlak təbəqələşməsi Azərbaycan sahibkar kəndinin digər rütbü olan mülkədar və digər xüsusi mülkiyyət kateqoriyalı torpaq sahibləri arasında da baş vermişdir.

Azərbaycan sahibkar kəndində baş verən təbəqələşmə prosesinin gedişini yuxarıda bəhs edilən bir sıra əlamətlərinin hamısı əsasında izləmək və təhlil etmək əksər hallarda

mümkün olmadığı, əldə olunmuş rəqəmlərlə sahibkar kəndinə aid olan hissəsinin bəzən hətta quberniyalardan biri üzrə, ümumiləşdirilmiş nəticələrə gətirib çıxarmağa imkan vermədiyi üçün tədqiqatımızda ən çox, kənd təsərrüfatında əsas istehsal vasitələri sayılan torpaq, mal-qaranın sayı, muzdlu əməkdən istifadə və torpaq icarə etmək imkanları baxımından təhlil etmək daha asandır.

İmperiyanın digər əraziləri ilə, xüsusilə də mərkəzi quberniyalarla müqayisədə Azərbaycan sahibkar kəndində kəndlilərin torpaqla təminatı məsələsinin dəfələrlə geri qaldığını bilərək məqalədə bubarədə bəzi konkret rəqəmlər verilmişdir. Deməliyik ki, məhz bu vəziyyət bir tərəfdən sahibkar kəndində təbəqələşmə prosesini sürətləndirir, digər tərəfdən bu prosesdə əvvəllər ayrı-ayrıərazilərdə rast gəlinməyən yeni və fərqli xüsusiyyətləri müşahidə etməyi asanlaşdırırdı (9-s.165).

Sahibkar kəndində əmlak təbəqələşməsi prosesinin nəticəsi olaraq kəndlilərin yoxsul, ortabab və varlı kəndlilər kimi üç kateqoriyaya bölünməsinin əsasında, ilk olaraq onların torpaqla təminatı məsələsinin dayandığını əsas götürərək, XIX əsrin sonu – XX əsrin əvvəllərində həyata keçirilmiş aqrar islahatlarda, həmçinin, statistik material və ilkin mənbə xarakterli digər məcmuələrdə bu kateqoriyaların müəyyən edilməsi zamanı hansı torpaq sahəsinin miqyasının əsas götürüldüyünü aydınlaşdırmaq tələb olunur (4-27).

S.Avaliani, N.Boqdanova, O.Syomin, V.Moçalov, İ.Həsənov, Ə.Umayev və bir çox başqa müəlliflərin, demək olar ki, hamısı tərəfindən qəbul edilmiş ümumi olan qənaətə əsasən 2 desyatinə qədər əkin torpağı olan kəndlilər yoxsul, 2-5 desyatin arası ortabab və 5 desyatindən yuxarı isə varlı kəndlilər hesab olunurdular. Bu fikir, əslində, ilk olaraq XIX əsrə aid aqrar islahatların məzmununda ola bilsin ki, bir qədər konkret və dolayısı ilə də öz əksini tapmışdı. Belə ki, 1847-ci il və 1870-ci ilə aid aqrar qanunlarda 15 yaşına çatmış hər bir kəndli kişinin 5 desyatin, suvarılan torpaqlarda isə 3 desyatin torpaqla təmin olunmasının nəzərdə tutulması da 5 desyatinə qədər torpaq sahəsinin zəruri yaşayış minumumu hesab edilməsinə, deməli, 5 desyatin əkin sahəsinin orta hədd sayılmasına işarə demək idi (5; 6).

Ona görə də Azərbaycan sahibkar kəndində gedən əmlak və sosial təbəqələşməsi prosesinin əsas sahələrindən biri sayılan torpaqla təminat məsələsinin araşdırılması zamanı yuxarıdakı bölgünü əsas götürməklə, bütün müşahidə, müqayisə və ümumiləşdirmələri müəyyən etməyə üstünlük vermişik.

1886-cı il siyahıyalmanın nəticələrinə görə Azərbaycanda 64130 təsərrüfatda birləşən 425831 sahibkar kəndlisinin istifadəsində 480639 desyatin torpaq sahəsi olmuşdur. Bunlardan, təxminən, 390 min nəfəri və ya 92 %-i 57780 təsərrüfatda (92 %) birləşərək hər birinə, orta hesabla, 2 desyatinə qədər pay torpağı, 4479 təsərrüfatda (7,155%) birləşən 30309 nəfərin (7,12 %) 2-5 desyatin arası, 861 təsərrüfatda birləşən (1,5 %) 5811 nəfərin (1,5 %) 5 desyatindən yuxarı həddində torpaq sahəsi qeydiyyata alınmışdı.

Halbuki eyni vaxtda 115237 təsərrüfatda birləşən dövlət kəndlilərin (786137 nəfər) istifadəsindəki torpaq sahəsi olduğunu bilərək bunlardan 54990 təsərrüfatda birləşən (47,3 %) 394100 kəndlinin (50 %) orta hesabla 2 desyatinə qədər pay torpağına malik olduğunun şahidi oluruq (7-s.34).

Göründüyü kimi, sahibkar kəndində kəndlilərin çox böyük əksəriyyəti, yəni 92 faizi aztorpaqlı olduğu halda, dövlət kəndində bu göstərici təqribən 50 %-ə yaxın olmuşdur.

Yenə də dövlət kəndlilərinin 2-5 desyatin arası torpaq sahəsindən istifadə edən hissəsinin 49284 (42,4 %) təsərrüfatda birləşərək cəmi 324572 nəfər (41,1 %) təşkil etdiyini

müəyyənləşdirdikdən sonra bu göstəricinin də sahibkar kəndindəki eyni kateqoriyaya aid olan nəticələrdən (müvafiq olaraq 7,2 % kəndli və 7,15 % təsərrüfat) xeyli yüksək olması məlum olur.

Dövlət və sahibkar kəndlilərinin təbəqələşmə dərəcəsi baxımından, təxminən, eyni vəziyyətdə olan, 5 desyatindən yuxarı torpaq sahəsindən istifadə edilməsi göstəriciləri bir-birinə bir qədər yaxşı olmuşdur. Yəni ümumi olaraq 67465 dövlət kəndlisinin (8,55 %) 10963 təsərrüfatda birləşməsi (9,4 %) faktı söyləməyə əsas verir ki, təbəqələşmə baxımından sahibkar kəndlinin göstəriciləri dövlət kəndini ilk iki kateqoriyaya aid nəticələr üzrə xeyli qabaqlamışdır.

Başqa sözlə desək, sahibkar kəndində 1,5 % varlı ya qolçomaq kəndli təsərrüfatlarının ixtiyarında olan torpaq sahəsi ilk kateqoriya daxil olan yoxsul kəndlilərin istifadəsindəki torpaqlardan bir qədər az, ortabab kəndli təsərrüfatlarının torpaqlarından təqribən 2 dəfədən bir qədər az torpaq sahəsinin olduğu qeydə alınmışdır.

Aşağıdakı verilmiş cədvəldə Azərbaycan kəndinin hər iki hissəsində təbəqələşmə üzrə göstəricilərinin 1886-cı il siyahıya almanın nəticələri əsasında müqayisəsini veririk (9-s.127-193).

*Sahibkar kəndi (cədvəl 1)*

| *s/s* | *Kəndli kateqoriyaları* | *Torpaqla təminatı* | *Kəndlilərin sayı* | *%* | *Təsərrü-fatların sayı* | *%* |
|---|---|---|---|---|---|---|
| 1 | Yoxsullar | 2 desyatinə qədər | 390 min | 92 | 57780 | 92 |
| 2 | Ortabablar | 2-5 desyatin arası | 30309 | 7,12 | 4479 | 7,15 |
| 3 | Varlılar | 5 desyatindən çox | 5811 | 1,5 | 861 | 1,5 |
| 4 | Birlikdə | - | 425831 | - | 64130 | - |

*Dövlət kəndi (cədvəl 2)*

| s/s | Kəndli kateqoriyaları | Torpaqla təminatı | Kəndlilərin sayı | % | Təsərrüfatla-rın sayı | % |
|---|---|---|---|---|---|---|
| 1 | Yoxsullar | 2 desyatinə qədər | 394100 | 50 | 54990 | 47,3 |
| 2 | Ortabablar | 2-5 desyatin arası | 234572 | 41,1 | 49284 | 42,4 |
| 3 | Varlılar | 5 desyatindən çox | 67465 | 8,55 | 10963 | 9,4 |
| 4 | Birlikdə | - | 786127 | - | 115237 | - |

*Azərbaycan kəndi bütövlükdə (cədvəl 3)*

| s/s. | Kəndli kateqoriyaları | Kəndlilərin sayı | % | Təsərrüfat-ların sayı | % | Pay torpaq-larının sahəsi | % |
|---|---|---|---|---|---|---|---|
| 1 | Yoxsullar | 783811 | 64,5 | 112780 | 63,6 | 797774 | 32,24 |
| 2 | Ortabablar | 354885 | 29,22 | 53763 | 30,06 | 1105620 | 44,59 |
| 3 | Varlılar | 73276 | 6,03 | 11824 | 6,31 | 568408 | 23,16 |
| 4 | Birlikdə | 1232182 | - | 178367 | - | 2471802 | - |

Azərbaycan sahibkar kəndində təbəqələşmə baxımından azlıq təşkil edən varlı – qolçomaq kəndli təsərrüfatları olmuşdur və bu göstərici – 861 təsərrüfatda (1,5 %) birləşən 5811 varlı qolçomaq kəndli (1,5 %) orta ümumi Azərbaycan və dövlət kəndi ilə müqayisədə son dərəcə aşağı olmuşdur (müvafiq olaraq 6,6 % və 9,4 %).

Kəndli islahatından sonrakı onilliklərin hamısında sahibkar kəndində təbəqələşmə prosesini ardıcıl izləmək heç də həmişə mümkün olmamışdır. Belə ki, 1886-cı il və 1897-ci illərdə keçirilmiş siyahıalmaların gedişində kəndlilərin müxtəlif təbəqələrinin və Azərbaycan kəndinin hər iki hissəsinin müxtəlif kateqoriyalar üzrə torpaqla təminatını müəyyən etməyə və geniş təhlillər aparmağa imkan verən çoxlu statistik rəqəmlər əldə etmək mümkün olmuşdursa, lakin sonrakı onilliklərdə kəndlilər arasında təbəqələşmənin gedişini yalnız varlı-qolçomaq kəndli təsərrüfatları daxilində gedən dəyişikliklər əsasında izləmək mümkün olmuşdur. Bu prosesin izlənilməsi və təhlillərimiz ən çox varlı sahibkar kəndlilərin indii öz torpaqlarından başqa mülkədar və bəylərə məxsus, habelə dövlət kəndinə daxil olan torpaq sahiblərini icarə etməsi və bir də öz təsərrüfatları daxilində muzdlu əməkdən istifadə etmələri zamanı qeydə alınmış rəsmi statistik göstəricilərə əsasən aparılmışdır.

Sahibkar kəndlilərin torpaqla təminatı baxımından təbəqələşmə prosesinin islahatdan sonra keçən 2-3 onillik ərzindəki dəyişikliklər nəticəsində diqqət çəkən əsas yekunlarından biri təbəqələşmə prosesində ciddi və ya sıçrayışlı dəyişikliklərin baş verməməsi idi. Varlı sahibkar kəndlilər kateqoriyasına daxil olanların sayının ən çox ortabab kəndlilər kateqoriyası hesabına çox az artması fonunda, onların istifadə etdikləri torpaq sahələrinin genişlənməsi diqqəti daha çox cəlb edən xüsusiyyətlərdən biri olmuşdur.

Varlı sahibkar kəndlilər Azərbaycanın müxtəlif qəzalarında əkinə yararlı torpaqların ən yaxşı hissəsini saxlamaqla bərabər Kəndli Əsasnaməsinin pay torpaqlarının yalnız ödəncəməliyyatlarından sonra xüsusi mülkiyyətə çevrilməsinə imkan verməsi qaydası, bununla əlaqədar yaranan çətinliklərdən istifadə edərək müxtəlif yollarla, ilk növbədə satınalma, sonra icarəyə götürmə, bəzən də həmkəndlilərinin və dövlət kəndinə daxil olan torpaqların zorla, özbaşına tutulması yolu ilə ilbəil öz torpaq sahələrini genişləndirməyə nail olurdular.

Ümumiyyətlə isə sahibkar varlı kəndli kateqoriyasına daxil olan kəndlilərin öz torpaq sahələrinin genişləndirilməsi üçün istifadə etdikləri vasitə geniş miqyasda olmasa belə, qonşu həmkəndlilərinin pay torpaqlarının satın alınması idi. Statistik məlumatlara görə 1880-ci illərdə Naxçıvan qəzası da daxil olmaqla 2 Azərbaycan quberniyasında 1538, o cümlədən Yelizavetpol quberniyasında 1114, Bakı quberniyasında 26 kəndli təsərrüfatının xüsusi mülkiyyət təşkil edən torpaq sahəsi olmuşdur. XIX əsrin sonuna kimi sahibkar kəndlilərin öz pay torpaqlarını ödənc yolu ilə satın almaq imkanlarının hədsiz dərəcədə məhdud olması ilə əlaqədar bu rəqəm çox az dəyişmiş və həmin vaxt sahibkar kəndlilərinə, ortabab və varlı kəndli kateqoriyaları üzrə, 18 min desyatindən bir qədər çox torpaq sahəsi olmuşdur (6-s.67; 8-s.46).

Sahibkar kəndlilərin təbəqələşmə baxımından ikinci kateqoriyasının qismən, üçüncü kateqoriyaya aid olanların müəyyən hissəsinin bəhs etdiyimiz yollarla torpaq sahələrini genişləndirmək imkanlarına nail olmadıqlarındansahibkar kəndində yaşayanların, təqribən, 92 %-dən çoxu bu cür imkanlardan məhrum olması bir yana qalsın, Kəndli əsasnaməsinin müəyyən etmiş olduğu «kəsiklərin» lərin geri qaytarılması, ən çox isə sahibkar kəndli ailələri daxilində təbii artımın baş verilməsi səbəbəindən 2 desyatinə qədər pay torpağına sahib olma və ya ondan istifadə etmə səviyyəsi ilbəil aşağı düşməkdə idi. Hətta əksər qəzalarda və kəndlərdə bu rəqəm – göstərici 0,5 desyatindən də aşağı düşürdü.

Azərbaycan sahibkar kəndi daxilində təbəqələşmə prosesində 1912-1913-cü illərin yeni aqrar qanunlarının qəbul edilməsinə qədər məhz torpaq sahələrinin satın alınması

prosesinin təkanverici amil olması heç bir halda şübhə doğurmamış və bu cəhət o dövrün quberniya müstəmləkə idarəçilik orqanlarının əməkdaşlarının iştirakı ilə hazırlanmış müxtəlif hesabat və statistik materiallarında da öz əksini tapmışdır. İ.Seqal, O.Syomin və bir çox başqaları hətta Şimali Azərbaycan sahibkar kəndindəki təbəqələşmə prosesinin sürətinin,ən çox da kəndlilərin torpaqla təminatı və pay torpaqlarının xüsusi mülkiyyətə çevrilməsi baxımından, imperiyanın mərkəzi qaraporpaq və digər quberniyaları ilə müqayisə edərək Şimali Azərbaycan kəndində bu prosesin xüsusilə yüksək rəsmlərə malik olduğunu qeyd etmişdilər (10-s.57; 11-s.24).

Azərbaycan sahibkar kəndində kəndlilərin, təqribən 9/10 hissəsindən çoxunun cüzi torpaq təminatı vəziyyətində olması haqqında ətraflı şəkildə bəhs etdiyimiz üçün belə kəndlilərintorpaq sahələrini ağır şərtlərlə icarəyə götürmələri hallarına tez-tez rast gəlmək olurdu. İslahatdan sonrakı onilliklərdə sahibkar kəndlilərin hər üç kateqoriyaya daxil olanların müxtəlif dərəcədə torpaq sahələrini, xüsusilə də yaylaq və qışlaq torpaqlarını, az saydaolsa da, əkinə yararlı torpaq sahələrini icarəyə götürmələri haqqında faktlar çoxdur.

## ƏDƏBİYYAT

1.С.Л.Авалиани. Крестьянский вопрось в Закавказье. Т. IV ., Издательство Тбилисского Государственного Университета. Тифлис, 1920 г. 235с.
2.Аргутинский-Долгоруков А.М. История сооружения и эксплуатации Закавказской железной дороги за двадцать пять лет ее существования (1871-1896 гг.) Тифлис, 1896, 682 с.
3.Богданова Н.Г. Аграрные отношения в Азербайджане в 1870-1917 гг. Ист.зап., Москва. 1941, № 2.
4.T.T.Vəliyev.XX əsr Azərbaycan tarixi. I cild.Bakı.Təhsil nəşriyyatı.2009.560 s.
5.Г.Н.Гасанов. Из истории Североазербайджанской деревни в конце XIX – начале XX вв. Изд-во Тахсил. Баку 2007. 224с.
6.Сборник сведений о Елизаветпольской губернии. Типография т-ва «Вереичев и Ка-менмахер»., Тифлис, 1902.164 s.
7.Сборник статических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края. Тип. М.Шарадзе. Тифлис, 1899 г., 841 с.
8.Сборник сведений по Бакинской губернии. Баку. Типография Губернского Правления. Тифлис, 1911, 265 с.
9.Сведения о числе крестьян, живущих на владельческей земле в губерниях: Бакинской, Елизаветпольской и Ереванской с показанием количества десятин земли находящейся в наделе или пользования у названных крестьян, а также размеров и виды повинностей, уплачиваемых крестьянами за эти земли. Тифлис, Типография Губернского Правления, 1893, 538 s.
10.И.Л.Сегаль.Крестьянское землевладение в Закавказье.Тифлис.1912 г.,155 с.
11.О.Семинь. Великая годовщина:Аграрный вопрос и крестьянская (крепостная) реформа на Кавказе. Издательство «Вся Россия». Киев, 1911 г., 166 с.

**Tarix və onun problemləri, № 2 2013**

**ФАЗИЛЬ БАХШАЛИЕВ**
***доцент Бакинского Государственного Университета***

## РАССЛОЕНИЕ КРЕСТЬЯНСТВА ВО ВЛАДЕЛЬЧЕСКОМ ДЕРЕВНЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В 70-90-Х ГОДАХ XIX ВЕКА

В статье излагается основные вопросы связанные с расслоением крестьянства деревне и крестьянским землепользованием во владельческом деревне Азербайджана после крестьянской реформы. Указывается, что малозмелья и безземелья крестьянь послужили причиной образования и углубления расслоения в среди крестьян помещиков. Приводиться многие цифры и факты о положении трех категорий крестьнь по отдельным уездам двух губерний. Сведения о числе владельческих крестьян, живущих на земле с показанием количества десятин земли находящейся в наделе или пользования у названных крестьян, а также размеров и виды повинностей, уплачиваемых крестьянами за эти земли, подробно описывает условия жизни крестьян.

**FAZİL BAKHSALİYEV**
***Associate Professor of Baku State University***

## 70-90-th OF THEXIXCENTURU THE STRATIFIKASION OF THE PEASANTSIN THE AZERIBAIJAN RURAL ENTREPRENEURS

The article describes all the changes in the formation of capitalist relations in the possessory village of Northern Azerbaijan. It in indicated that not only the landlords and backs, but also their peasants began producing different products on their farms, more and more. Landowners of Northern Azerbaijan, gradually lost their former hands, gave their land to rent to different people began to conduct their farms themselves in the new capitalist rules. The process of selling and planting of the landed estates in the banks. Underwent landlords and backs resorted to the use of hired labor on their farms very often.

*Rəyçilər:t.e.n. A.Cəlilov, t.e.d.R.C.Süleymanov*

*BDU-nun Slavyan ölkələri tarixi kafedrasının 22 noyabr 2012-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülüb (protokol №3).*